Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 26, 2023. 57-69
DOI: 10.30546/2616-4418.26.2023.57

# AZƏRBAYCANIN DÜNYA TİCARƏTİNDƏ YERİ VƏ ROLU

**Vəfa BAYRAMLI**
*Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan*

## Giriş

Qloballaşma şəraitində bütün ölkələrin qarısında duran mühüm məsələlərdən biri beynəlxalq bazara rəqabətqabiliyyətli məhsul və xidmətlərin çıxarılmasını təmin etməkdir. Beynəlxalq ticarət əlaqələrinin inkişaf etdirilməsi ölkənin beynəlxalq əmtəə bazarlarında və beynəlxalq əmək bölgüsündə yüksək və səmərəli şəkildə ixtisaslaşması ilə bağlı tədbirlərin görülməsini, ölkə ixracatçılarının mövqeyinin beynəlxalq bazarda möhkəmləndirilməsini və ən əsası milli iqtisadiyyatın xarici və mənfi təsirlərdən qorunmasını tələb edir.

Xarici ticarət həm daxili bazarı xarici məhsullarla təmin edərək genişləndirir, həm də milli məhsulların istehsalını artırır. İxrac milli hasilatı artırma və iqtisadi artıma nail olma potensialına sahibdir. Ölkənin xarici ticarətinin genişlənməsi hərəkətsiz olan ölkə iqtisadiyyatını canlandırır və onun inkişafına gətirib çıxarır.

CC BY NC ND

## Metod

Tədqiqat işində statistik və müqayisə metodlarından istifadə olunmuşdur. Azərbaycanın xarici ticarət göstəriciləri cədvəl şəklində təsvir edilmiş və ölkənin xarici ticarət dövriyyəsi əvvəlki illərlə müqayisə olunmuşdur. Bundan əlavə Azərbaycanın xarici ticarətindən əldə edilmiş saldo qrafik şəklində təsvir olunaraq, əvvəlki illərlə müqayisə edilmişdir.

## Xarici ticarət dövriyyəsinin dinamikası

Azərbaycan dünyanın bir çox ölkəsi ilə ticarət əlaqələri qurur və bu əlaqələri genişləndirməkdə davam edir. Son göstəricilərə əsasən 2021-ci ildə Azərbaycanın hüquqi və fiziki şəxsləri 188 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatlarını həyata keçirmişdir. Həmin ildə 174 ölkədən məhsullar idxal olunmuş, 120 ölkəyə isə məhsullar ixrac olunmuşdur. Cədvəl 1-də illər üzrə Azərbaycanda aparılmış xarici ticarət dövriyyəsinin həcmi əks olunmuşdur.

**Cədvəl 1. Xarici ticarət dövriyyəsinin dinamikası (milyon ABŞ dollar)**

| | Ticarət dövriyyəsi | İdxal | İxrac |
|---|---|---|---|
| **2005** | 8,558.4 | 4,211.2 | 4,347.2 |
| **2006** | 11,638.9 | 5,266.7 | 6,372.2 |
| **2007** | 11,771.7 | 5,713.5 | 6,058.2 |
| **2008** | 54,926.0 | 7,170.0 | 47,756.0 |
| **2009** | 20,824.5 | 6,123.1 | 14,701.4 |
| **2010** | 33,160.7 | 6,600.6 | 26,560.1 |
| **2011** | 44,161.7 | 9,756.0 | 34,405.7 |
| **2012** | 43,813.5 | 9,652.9 | 34,160.6 |
| **2013** | 43,554.1 | 10,712.5 | 32,841.6 |
| **2014** | 39,407.5 | 9,187.7 | 30,219.8 |
| **2015** | 25,809.0 | 9,216.7 | 16,592.3 |
| **2016** | 21,596.6 | 8,489.1 | 13,107.5 |
| **2017** | 24,263.8 | 8,783.3 | 15,480.5 |
| **2018** | 31,782.7 | 11,465.9 | 20,316.8 |
| **2019** | 33,065.3 | 13,667.5 | 19,397.8 |
| **2020** | 24,203.5 | 10,732.0 | 13,471.5 |
| **2021** | 35,556.4 | 11,705.8 | 23,850.6 |
| **2022** | 52,686.4 | 14,539.8 | 38,146.6 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır. (DSK 2022).

Ölkənin 2022-ci ildə xarici ticarət dövriyyəsi 52,686.4 milyon ABŞ dolları olmuşdur. Xarici ticarət dövriyyəsinin 14,539.8 milyon dollarını yəni 27,6 faizini ölkəyə idxal olunan məhsulların, 38,146.6 milyon dollarını (72,4 faizini) isə ölkədən ixrac olunan məhsulların dəyəri təşkil edir. Buna əsasən müsbət saldo əldə edilmişdir və müsbət saldonun məbləği 23,606.7 milyon dollar təşkil etmişdir. Xarici ticarət dövriyyəsindən müsbət saldonun əldə edilməsi ölkənin iqtisadiyyatının böyüməsində mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın xarici ticarət dövriyyəsindən əldə edilmiş saldo aşağıdakı qrafik 1-də göstərilmişdir.

**Qrafik 1. Xarici ticarət dövriyyəsindən yaranmış saldo (milyon ABŞ dolları)**




**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır. (DSK 2022).

Qrafikdən göründüyü kimi Azərbaycanda ixracın həcmi idxalın həcmindən daha çox olmuş və bu zaman xarici ticarət dövriyyəsindən müsbət saldo əldə edilmişdir. 2008-ci ildə bu göstərici ən yüksək dəyərini əldə etmiş və yaranan saldo 40,586.0 milyon ABŞ dolları olmuşdur.

Müsbət saldonun əldə olunması nəticəsində ölkədə valyuta ehtiyatlarının daha da artmasına gətirib çıxarmışdır. Hazırda olan məlumatlara əsasən 2022-ci ildə ölkənin valyuta ehtiyatları 58 milyard ABŞ dollarını keçmişdir (AR Mərkəzi Bank). Valyuta ehtiyatlarının bu cür artması ölkənin kredit reytinqinin yüksəlməsinə və ölkəyə xarici investorların cəlb edilməsinə müsbət təsir göstərmişdir.Valyuta ehtiyatlarının sürətli şəkildə çoxalması Azərbaycanın öz öhdəliklərini tam və vaxtında yerinə yetirə bilməsi və ödəniş qabiliyyətli olması baxımından da əhəmiyyətlidir.

Qeyd edildiyi kimi Azərbaycanın valyuta ehtiyatlarının artması xarici investorların ölkəyə olan marağını daha da artırmışdır. Bu marağın olmasının əsas səbəbi ölkə iqtisadiyyatının sabit olmasıdır (Məmmədli, 109).

## Azərbaycanın dünya ölkələri ilə xarici ticarət əlaqələri

Azərbaycan bir çox dünya ölkələri ilə xarici ticarət əməliyyatlarını həyata keçirir. Azərbaycan Dövlət Gömrük Komitəsinin göstəricilərinə əsasən 2021-ci ildə Azərbaycanın ixracında üstün yer tutan ölkə İtaliyadır və bu pay ixracın 41,6 faizini təşkil edir. Bu ixracda əsas üstünlüyü neft və neft məhsulları təşkil edir. Azərbaycanın İtaliya ticarətində payı 90 faizdən çoxdur. Bunun da əsas səbəbi enerji sektorunda əməkdaşlığın yüksək səviyyədə olmasıdır. İtaliyanın neft ilə təchiz olunmasında Azərbaycan ilk yerdə, qaz ilə təchiz olunmasında isə 3-cü yerdədir.

Azərbaycan ərazisində hazırda fəaliyyət göstərən 100-dən çox İtaliya şirkəti mövcuddur. Bu şirkətlərin fəaliyyət göstərdiyi sahələrə xidmət, ticarət, rabitə, tikinti, kənd təsərrüfatı və digər sektorlar aiddir. Azərbaycanın işğal olunmuş ərazilərində quruculuq və bərpa işlərində bir neçə İtaliya şirkəti iştirak edir və maraqlanan şirkətlərlə də müzakirələr aparılır.

**Diaqram 1. Azərbaycan ixrac əməliyyatlarında ölkələrin faizlə payı**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır. (AR DGK 2022).

İxracın üstün olduğu ikinci ölkə isə Türkiyədir və ixrac üzrə payı 12,7 faiz təşkil edir. Azərbaycan və Türkiyə arasında ticarət davamlı olaraq artmaqdadır. Türkiyə ölkəmizin həm ixracda, həm idxalda, həm də ikitərəfli dövriyyədə ticarət tərəfdaşı kimi 2-ci yerdə çıxış edir. 2021-ci ilin göstəricisinə əsasən Türkiyə və Azərbaycan arasında ticarət dövriyyəsi 4.661,85 mln ABŞ dolları həcmində olmuşdur.

Azərbaycan və Türkiyə arasında son illərdə ticarətin asanlaşdırılması və onun həcminin artırılması ilə əlaqədar olaraq bir sıra ciddi tədbirlər irəli sürülmüşdür. Bununla əlaqədar olaraq 2020-ci ildə iki dövlət arasında preferensial ticarət sazişi imzalanmışdır və bu sazişə əsasən iki ölkə tərəfindən 15 mal üzrə tətbiq olunacaq güzəşt və onların illik tarif kvotaları ilə bağlı razılaşmalar əldə edilmişdir. Həmin məhsulların idxalı üzrə gömrük rüsumlarınının tarif kvotaları üzrə faizi 0-a endirilmişdir. 2021-ci ildə qüvvədə olan sazişə görə bu malların əsasını kənd təsərrüfatı üzrə məhsullar təşkil edir.

Türkiyə və Azərbaycanın arasında olan iqtisadi münasibətlər ölkəmizin müstəqil olduğu ilk illərdən başlayaraq inkişaf etməkdədir. Azərbaycan iqtisadiyyatına ən çox investisiyanın qoyulması Türkiyə tərəfindən həyata keçirilmişdir. Azərbaycana Türkiyədən cəlb olunmuş birbaşa investisiyanın həcmi 1995-2021-ci illər ərzində 13,3 milyard ABŞ dolları olmuşdur. Bu investisiyaların 10,4 milyard ABŞ dolları neft sektorunu, 2,9 milyard ABŞ dolları isə qeyri-neft sektorun əhatə edir. Türk şirkətlərinin fəaliyyəti əsasən enerji, telekommunikasiya, sənaye, sığorta və bank, nəqliyyat, qida, inşaat, yüngül sənaye (tekstil) və səhiyyə kimi sahələrdir.

Türkiyə iqtisadiyyatına ən çox sərmayə yatıran ölkələrdən biri də Azərbaycandır. Son illərdə Azərbaycan tərəfindən Türkiyəyə yatırılan investisiyaların həcmində artım müşahidə olunmuşdur. Türkiyəyə Azərbaycan tərəfindən 1993-2021-ci illər ərzində qoyulan birbaşa investisiyaların həcmi 20,3 milyard ABŞ dolları təşkil etmişdir və Azərbaycan sərmayəli hazırda 2000-ə yaxın fəaliyyətdə olan şirkət Türkiyə ərazisindədir. Bu investisiyaların 3,2 milyard ABŞ dollarını qeyri-neft sektoru, çox böyük hissəsini isə neft və kimya sektoru təşkil edir onun da həcmi 17.1 milyard ABŞ dollarıdır.

Azərbaycanda müxtəlif sahələr üzrə qeydiyyatdan keçmiş 4797 Türk şirkəti fəaliyyət göstərir. Bu şirkətlərin bir hissəsi hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aktiv olaraq fəaliyyət göstərirlər. Bu ərazilərdə hazırda Türk şirkətləri tərəfindən müxtəlif istiqamətli 107 layihə həyata keçirilir.

Azərbaycanın ixracında 3-cü yerdə olan ölkə Rusiyadır və onun ixracda payı 4,1 faizdir. 2021-ci ilin göstəricilərinə əsasən Rusiya və Azərbaycanın arasında olan ticarət dövriyyəsi 2.995,131.31 min ABŞ dolları təşkil etmişdir. Bu göstərici 2020-ci ilin göstəricisindən 12% çox olmuşdur. Ticarət dövriyyəsinin bu cür artışı məhdudiyyətlərin aradan qaldırılması ilə birbaşa bağlıdır. Rusiya bazarı Azərbaycanın yerli istehsalçıları üçün ənənəvi kənd təsərrüfatı bazarı hesab olunur.

Bu baxımdan ölkənin kənd təsərrüfatı məhsullarının ixracında Rusiya böyük paya sahibdir.

İxracda digər ölkələrin payı isə belədir: İsrail 4.0, Xorvatiya 3.4, Gürcüstan 3.0, Almaniya 2.7, Tunis və Portuqaliya 2.6, İspaniya 2.5, Ukrayna 2.0, Yunanıstan 1.9, Birləşmiş Krallıq 1.8, Belarus 1.3, Çexiya və İsveçrə 1.2, Kanada 1.0 faiz digər ölkələr isə 7.5 faiz təşkil edir. Ölkələrin ixracda payı diaqram 1-də göstərilmişdir (DSK 2022).

Azərbaycana malların idxal olunmasında Rusiya ən çox paya sahibdir. Rusiya və Azərbaycan arasında olduqca sıx iqtisadi əlaqələr mövcuddur. Azərbaycana Rusiya tərəfindən yatırılmış sərmayələrin həcmi 4,5 milyard ABŞ dollarını keçmişdir. Hazırda Azərbaycan ərazisində qeydiyyata alınmış 1110 Rusiya müəssisəsi fəaliyyət göstərir. Eyni zamanda Rusiyada da Azərbaycan tərəfindən qoyulan investisiyaların həcmi 1,5 milyard ABŞ dollarına çatmışdır (AR DGK 2022).Rusiyadan sonra idxalda yüksək paya sahib ölkələr Türkiyə (15,75 faiz) daha sonra isə Çindir (14.01 faiz). Azərbaycan idxalında əsas olan digər ölkələrin payı diaqram 2-də göstərilmişdir.

Azərbaycan məlumdur ki, digər ölkələr kimi yerli səviyyədə istehsalı mümkün olmayan və ölkənin daxili tələbatını ödəyən məhsulların idxalını həyata keçirir. Bu baxımdan ölkənin idxalında əsasən texnoloji avadanlıqlara, mexaniki aparatlara, maşın və elektrikli aparatlara, nəqliyyat vasitələri və onların hissələrinə daha çox yer verilir. Maşın, mexanizm, elektrik aparatları, avadanlıqları və onların hissələrinin ümumi idxalda payı 19.8 faiz təşkil etmişdir. Nəqliyyat vasitələri və onların hissələri isə 12.1 faiz təşkil etmişdir.

**Diaqram 2. Azərbaycanın idxalında əsas ölkələrin faizlə payı**




**Mənbə:** Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır. (AR DGK 2022).

İdxalın üstünlük təşkil etdiyi digər mallar isə yeyinti məhsullarıdır. 2022-ci ildə idxal edilən yeyinti və ərzaq məhsulları idxalın 16.2 faizini təşkil etmişdir. Ölkəmizə daha çox Rusiya və Türkiyədən ərzaq məhsulları idxal edilir. Digər malların idxalda faizi isə belədir: Qara metallar və onlardan hazırlanan məmulatlar 7.1 faiz, əczaçılıq məhsulları 4.4 faiz, oduncaq və ondan hazırlanan məmulatlar 2.6 faiz və s.

Azərbaycanın xarici ticarətinin qiymətləndirilməsini və ixrac səviyyəsini analiz edərkən ölkənin ixracının əmtəə strukturunun öyrənilməsi də vacibdir məsələlərdən biridir. Azərbaycanda ixracın əmtəə strukturu cədvəl 2-də göstərilmişdir.

**Cədvəl 2. 2021-ci il üzrə ixracın əmtəə strukturu**

| Mal qrupları | Ümumi ixraca nisbətən faizlə |
|---|---|
| Mineral məhsullar | 88.7 |
| Bitki mənşəli məhsullar | 3.0 |
| Az qiymətli metallar və onlardan hazırlanan məmulatlar | 1.7 |
| Toxuculuq materialları və məmulatları | 1.4 |
| Plastmaslar və onlardan hazırlanan məmulatlar, kauçuk,rezin hazırlanan m. | 2.0 |
| Mirvari, qiymətli və ya azqiymətli daşlar, qiymətli metallar və onlardan hazırlanan məmulatlar, bijuteriya, sikkələr | 0.9 |
| Kimya sənaye məhsulları | 1.1 |
| Hazır ərzaq məhsulları, Alkoqollu və ya alkoqolsuz içkilər, sirkə, tütün | 0.5 |
| Digər | 0.8 |

**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır. (DSK 2022).

Azərbaycan ixracında mineral məhsullar əsas üstünlüyə malikdir. İxrac edilən mineral məhsullar ümumi ixracın 88,7 faizini təşkil edir. Digər mal qrupları üzrə ixracın göstəriciləri isə daha azdır. Ölkəmiz həm toxuculuq, həm də kənd təsərrüfatı sahəsində çox böyük potensiala sahibdir. Bu baxımdan dövlət tərəfindən qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı bir çox tədbirlər görülür.

Azərbaycanın ixracında neft və neft məhsullarının üstünlük təşkil etdiyini göstəricilərdən də görmək mümkündür. Azərbaycanın 2022-ci ildə digər ölkələrə ümumi olaraq 19,483,623.56 ABŞ dolları dəyərində xam neft ixrac etmişdir. Cədvəl 3-dən də göründüyü kimi neft ixracının üstün olduğu ölkə İtaliyadır. İtaliyaya 6,640,524.17 ABŞ dollar dəyərində neft ixrac olunmuşdur. İsrail, Hindistan, İspaniya, Xorvatiya, Çexiya, Böyük Britaniya, Portuqaliya kimi ölkələr neft ixracının çox olduğu digər ölkələrdir.

**Cədvəl 3. 2022-ci il üzrə xam neftin ixrac olunduğu ölkələr**

| Ölkələr | Miqdar(ton) | Statistik dəyər (min ABŞ dolları) |
|---|---|---|
| **İtaliya** | 8 902 201.85 | 6 640 524.17 |
| **İsrail** | 2 289 417.59 | 1 672 358.20 |
| **Hindistan** | 2 016 842.39 | 1 625 428.01 |
| **İspaniya** | 1 393 132.02 | 998 958.11 |
| **Xorvatiya** | 1 159 692.58 | 952 386.35 |
| **Çexiya** | 1 193 948.77 | 919 890.51 |
| **Böyük Britaniya** | 926 011.63 | 752 508.07 |
| **Portuqaliya** | 1 020 358.90 | 742 619.12 |
| **İndoneziya** | 795 015.24 | 605 892.08 |
| **Almaniya** | 801 440.82 | 563 706.60 |
| **Türkiyə** | 768 725.69 | 502 220.05 |

**Mənbə:** Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır. (AR DGK 2022).

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi və həmin sahələrin ixracda payının artırılması ilə bağlı bir çox tədbirlər görülür. Ölkəyə investisiyaların cəlb olunması, investisiya və biznes mühitinin formalaşdırılması və yaxşılaşdırılması, sahibkarların dəstəklənməsi və güzəştlərin edilməsi, kənd təsərrüfatı sahəsində subsidiyaların verilməsi, sənaye parklarının yaradılması, ticarət evlərinin açılması və ixracın təşviq olunması və s. kimi tədbirlər ölkədə qeyri-neft sektorunun inkişafına imkan yaradır və qeyri neft məhsullarının ixracını artırmağa imkan verir (Məmmədli, 110).

## Nəticə

Dünya ticarəti qloballaşan dünyada iqtisadi inkişafa səbəb olan əsas amildir. Sərbəst beynəlxalq ticarətin olması qlobal bazarlarda alıcı və satıcılara ən yaxşı variantları seçməsinə imkan verir. Ticarətin bu kimi fürsətləri əsasən də kiçik iqtisadiyyatlar üçün daha da önəmlidir. Əgər belə iqtisadiyyatlar yalnız yerli məhsulları istehlak etməyə məcbur olarlarsa, qiymətlərin yüksək səviyyəsi və məhsul çeşidinin az olması kimi səbəblər, ölkədə əhalinin rifahına mənfi təsir göstərə bilər. Bu baxımdan ticarətin liberallaşması hər bir istehlakçıya istənilən çeşiddə və onun üçün sərfəli olan malları seçməsinə şərait yaradır.

Müasir dövrdə beynəlxalq ticarətdə baş verən proseslər birbaşa liberallaşma ilə əlaqəlidir. Ölkələrin dünya bazarında rəqabətinin artması, milli iqtisadiyyatlarda açıqlıq, gömrük tariflərində güzəştlər və ya tarif dərəcələrinin azaldılması, qeyri-tarif tənzimlənmələrinin aradan qaldırılması və s. bu kimi məsələlər azad beynəlxalq ticarət şəraitinin yaranmasına əsas verir.

## Açıqlama bəyanatı

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir.

**Əlaqə**

**E-mail:** bayramlivafa@gmail.com

## Ədəbiyyat:

Azərbaycan Dövlət Gömrük Komitəsi. (n.d.). Retrieved February 1, 2023, from https://customs.gov.az/uploads/foreign/2021/2021_12.pdf?v=1643353987

Azərbaycan Respublikasının Mərkəzi Bankı. (n.d.). Retrieved January 3, 2023, from https://cbar.az/

Azərbaycanın xarici ticarəti. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2023). Retrieved January 12, 2023, from https://www.stat.gov.az/source/trade/

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri. Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi. (n.d.). Retrieved January 14, 2023, from https://ankara.mfa.gov.az/az/content/106/azerbaycan-turkiye-iqtisadi-elaqeleri

Əliyev A. "ÜTT və Azərbaycanın beynəlxalq ticarət siyasəti", təlim materialı, Bakı, s9.2018.

Əliyev A., Şəkərəliyev A., Dadaşov İ., "Dünya iqtisadiyyatı: Müasir dövrün problemləri", Bakı-2003, 447.

Hacızadə N. "Pandemiyada dövründə Azərbaycanda xarici ticarətin vəziyyəti və diversifikasiyası" AR İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 4.2021.

Məmmədli, M. Xarici ticarət və onun tənzimlənməsi zərurəti. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası, 105–112. 2020

Salmanov.KH., Control system of public admınistration:Azerbaıjan example.International Journal of Humanities and Social Development Research.Vol 5,N 2, 2021.p.72-105. DOI: 10.30546/2523-4331.2021.5.2.72

Qəribov E. Azərbaycanda xarici ticarətin iqtisadi və statistik təhlili", Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 68.2019

Qəribov, A. . Beynəlxalq ticarət əməliyyatları. Bakı Biznes Universiteti. Bakı, s256.2017

**Məqaləyə istinad:** Bayramlı, V. Azərbaycanın dünya ticarətində yeri və rolu .Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 26, 2023.səh..57-69. DOI: 10.30546/2616-4418.26.2023.57

## SUMMARY

# Place and Role of Azerbaijan in world trade

**Vafa Bayramli**
**Azerbaijan State University of Economics, Baku, Azerbaijan**

In this article, substantial topics, such as the foreign trade dynamics of Azerbaijan, leading countries that participate in export and import, status and role of the country in world trade are discussed. Additionally, information about the balance generated from Azerbaijan's foreign trade flow and goods that have an advantage in its export is included.

One of the expansive areas of the economy is international trade. Free trade enables countries to develop economically and increase their income levels. The level of development and income of countries are the main factors that determine the growth of their integration into the world economy. World trade provides a basis for the efficient distribution of resources between countries.

International trade and its place in the world economic relations system are directly related to globalization. International trade has numerous positive effects on the economic development of countries. By participating in world trade, countries have the opportunity to get acquainted with advanced techniques and technologies, innovations, extensive knowledge, and information created on an international scale. World trade is developing rapidly and is constantly advancing onward.

Participation of the state in world trade is directly connected to its development level, size of its internal market, foreign trade policy, geographical location, population size, natural resources, etc. Furthermore, in terms of the country's capacity to deal with domestic demand, the country's size of production attracts participating in international trade. As a consequence, it is crucial to analyze foreign trade statistics whilst researching the country's role in international trade.

***Keywords:*** Azerbaijan, international trade, foreign trade, foreign trade turnover

# РЕЗЮМЕ

## Место и роль Азербайджана в мировой торговле

**Вафа Байрамлы**

**Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан**

В данной статье были затронуты такие важные вопросы, как динамика внешней торговли Азербайджана, основные страны, участвующие в импорте и экспорте, место и роль страны в мировой торговле. Кроме того, имеется информация о сальдо внешнеторгового оборота Азербайджана и товарно-товарных группах, имеющих преимущество в его экспорте.

Одной из самых широких сфер экономики является международная торговля. Свободная торговля создает условия для экономического развития стран и повышения уровня их доходов. Уровень развития и доходов стран являются основными факторами, определяющими рост их интеграции в мировую экономику. Мировая торговля обеспечивает основу для эффективного распределения ресурсов между странами.

Международная торговля и ее место в системе мирохозяйственных отношений напрямую связаны с глобализацией. Международная торговля оказывает много положительного влияния на экономическое развитие стран. Участвуя в мировой торговле, страны получают возможность знакомиться с передовыми технологиями, инновациями, обширными знаниями и информацией, созданными в международном масштабе. Мировая торговля быстро развивается и постоянно движется вперед.

Участие стран в международной торговле напрямую связано с уровнем их развития, размерами внутренних рынков, внешнеторговой политикой, проводимой государствами, их географическим положением, численностью населения, обеспеченностью природными ресурсами и т. д. Кроме того, объем производства страны приводит страну к участию в международной торговле с точки зрения возможности удовлетворения внутреннего спроса.

С этой точки зрения при рассмотрении роли страны в международной торговле важно изучить показатели, отражающие ее внешнюю торговлю.

***Ключевые слова:*** Азербайджан, международная торговля, внешняя торговля, внешнеторговый оборот